*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 6-14* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.6*

# "Kitabi-Dədə Qorqud": Heydər Əliyevdən – İlham Əliyevə

**İsa Həbibbəyli**
AMEA-nın prezidenti, akademik
E-mail: isa.habibbeyli@science.az

**Annotasiya.** Məqalədə zamanın bütün sınaqlarına sinə gərərək, bu günümüzə qədər gəlib çıxmış "Kitabi-Dədə Qorqud" abidəsinin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanda hakimiyyəti dövrlərində görülən işlərdən bəhs olunur**.** Ümumtürk təfəkkürünün VII əsrdə yaratdığı möhtəşəm ədəbi hadisə olan "Kitabi-Dədə Qorqud" eposu Azərbaycan xalqının ədəbi-estetik düşüncəsinin inkişafında, onun milli-mənəvi zənginləşməsində müstəsna əhəmiyyətə malik olan monumental sənət nümunəsi kimi təqdim olunur.
"Kitabi-Dədə Qorqud" eposu məhz Heydər Əliyev – İlham Əliyev epoxasında sözün həqiqi mənasında xalqımızın əsl milli-mənəvi sərvətinə çevrilmək imkanı qazanmış və dünya miqyasına çıxarılmışdır. Müstəqillik illərində "Kitabi-Dədə Qorqud" eposu ilə əlaqədar ölkəmizdə dövlət səviyyəsində həyata keçirilmiş tədbirlər Dədə Qorqudun azərbaycançılıq və vətənpərvərlik ideyalarının xalqımızın və dövlətimizin idealları ilə tam olaraq səsləşdiyini nümayiş etdirmişdir.
"Kitabi-Dədə Qorqud" müstəqil Azərbaycan dövlətində xalqımızın milli-mənəvi pasportu, dərs kitabı kimi nəsillərdən-nəsillərə çatdırılacaq, dövlət müstəqilliyimizin daha da inkişaf etdirilərək möhkəmləndirilməsinə xidmət edəcəkdir.
**Açar sözlər:** "Kitabi-Dədə Qorqud", Heydər Əliyev, İlham Əliyev, epos, azərbaycançılıq, vətənpərvərlik

**Məqalə tarixçəsi:** göndərilib – 02.03.2023; qəbul edilib – 14.03.2023

# "The Book of Dada Gorgud": From Heydar Aliyev to Ilham Aliyev

**Isa Habibbayli**
President of ANAS, academician
E-mail: isa.habibbeyli@science.az

**Abstract.** The article discusses the initiatives taken in Azerbaijan under the Azerbaijani people's National Leader Heydar Aliyev's power to promote the monument "The Book of Dada Gorgud", which overcame obstacles to become what it is now in the world. The magnificent literary phenomenon "The Book of Dada Gorgud", which is a result of prevalent Turkish thought in the VII century, is presented as a monumental example of art that played an exceptional role in the advancement of the Azerbaijani nation's literary-aesthetic thought and in the enrichment of its national-moral thought.
Just during the Heydar Aliyev-Ilham Aliyev era, the epic "The Book of Dada Gorgud" became a great national-moral treasure of our country and was internationalized. The events of the epic "The Book of Dada Gorgud" that took place in our nation serve as evidence of the affinity between Dada Gorgud's patriotism and the principles of our country and state. As a national-moral passport and guide for our country in independent Azerbaijan, "The Book of Dada Gorgud" will be passed down through the centuries and help to cement our freedom.

The events related to “The Book of Dada Gorgud” epic held in our country demonstrates that Dada Gorgud’s patriotism and Azerbaijanism principles are compatible with those of our country and state. Generations will get “The Book of Dada Gorgud” as a national-moral passport and manual of our nation in independent Azerbaijan, which will help to consolidate our freedom.
**Keywords:** “The Book of Dada Gorgud”, HeydarAliyev, Ilham Aliyev, epic, Azerbaijanism, patriotism

**Article history:** received – 02.03.2023; accepted – 14.03.2023

## Giriş / *Introduction*

Ümumtürk təfəkkürünün VII əsrdə yaratdığı möhtəşəm ədəbi hadisə olan “Kitabi-Dədə Qorqud” eposu Azərbaycan xalqının ədəbi-estetik düşüncəsinin inkişafında, onun milli-mənəvi zənginləşməsində müstəsna əhəmiyyətə malik olan, milli düşüncəmizin ən qədim arxetiplərini özündə əks etdirən monumental sənət nümunəsidir. Yüksək mənəvi dəyərləri – vətənpərvərlik, qəhrəmanlıq, doğma torpağa bağlılıq, mənəvi zənginlik duyğularını təsvir və tərənnüm edən, bəşəri ideyaları təcəssüm etdirən bu möhtəşəm abidə qloballaşan dünyada bütün türk xalqlarının mənəvi birlik simvolu, Azərbaycan xalqının isə ədəbi pasportudur.

Zamanın bütün sınaqlarına sinə gərərək bu günümüzə qədər gəlib çıxmış bu möhtəşəm abidənin dünya ictimaiyyətinə çatdırılmasında və xalqımıza yenidən təqdim olunmasında Azərbaycan xalqının Ümummilli Lideri, Prezident Heydər Əliyevin Azərbaycanda birinci hakimiyyəti dövründə (1969-1982-ci illər) böyük işlər görülmüşdür. Fikrimizcə, həmin dövrün ən böyük mədəni hadisəsi “Kitabi-Dədə Qorqud” eposunun motivləri əsasında filmin çəkilib dünya kino ekranlarında nümayiş etdirilməsi olmuşdur. “Azərbaycanfilm” kinostudiyası tərəfindən 1975-ci ildə çəkilmiş filmin ssenari müəllifi Anar, quruluşçu rejissoru Tofiq Tağızadə, quruluşçu operatoru Rasim İsmayılovdur. Filmin musiqisini görkəmli bəstəkar Emin Sabitoğlu yazmışdır. “Dədə Qorqud” filmi “Azərbaycanfilm” kinostudiyasının çəkdiyi ilk ikiseriyalı filmdir. O vaxta qədər maliyyə məsələləri ilə əlaqədar olaraq, Moskva Azərbaycanda iki və çoxseriyalı filmin çəkilişinə icazə verməmişdi. Lakin bu film şəxsən Heydər Əliyevin təşəbbüsü ilə çəkildiyindən, maliyyə məsələsi də vaxtında həll olunmuş və ssenari iki seriya olaraq təsdiq edilmişdir. “Kitabi-Dədə Qorqud” eposunun dünya səviyyəsində tanıdılmasına xidmət edən yüksək səviyyəli “Dədə Qorqud” filmi Azərbaycanda, Moskvada, o zamankı SSRİ-nin paytaxt şəhərlərində, dünya ekranlarında nümayiş etdirilərək böyük şöhrət qazanmışdır. Görkəmli dövlət xadimi Heydər Əliyev Xalq yazıçısı Anarın “Dədə Qorqud” filminə yüksək qiymət verərək demişdir: “Mən Anarın bu münasibətlə yazdığı filmi çox qiymətləndirirəm. Anarın bu barədə təşəbbüsü olmasaydı, o, “Dədə Qorqud” filmini yaratmasaydı, “Kitabi-Dədə Qorqud” dastanı haqqında xalqımız üçün bu qədər geniş məlumat yox idi” [2].

## Əsas hissə / *Main Part*

Fövqəladə əhəmiyyətli bu mədəniyyət faktından sonra “Kitabi-Dədə Qorqud” eposunun həyatında yenə də Azərbaycanda ən əhəmiyyətli beynəlxalq bir hadisə baş vermişdir. 1988-ci ilin iyul ayında Bakıda keçirilmiş türkoloqların Birinci Sovet-Türkiyə kollokviumunda əsas müzakirə mövzusu “Kitabi-Dədə Qorqud” eposunun dünya qorqudşünaslığının son nailiyyətləri əsasında daha dərindən öyrənilməsi və hamının qəbul edə biləcəyi tənqidi mətnin hazırlanması məsələsi olmuşdur. Tədbirdə iki ölkənin – Türkiyə və Sovetlər Birliyinin qorqudşünas alimləri iştirak edirdilər. Sovetlər tərəfi Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Moskva şəhərinin qorqudşünas alimləri təmsil etmişlər [5, s.26-30]. Müzakirə mövzusu “Kitabi-Dədə

Qorqud" olan kollokvumun işində hər iki ölkədən – Türkiyə Respublikası və o zamankı Sovet İttifaqından yeddi alim iştirak etmişdir.

Türkiyə Respublikasını Türk Kültür, Dil və Tarix Yüksək Qurumu təmsil etmişdir. Tədbirdə Qurumun üzvlərindən Orxan Şaik Kökyay, Tüncər Gülənsoy, Osman Fikri Sərtqaya, Bahəddin Ögəl, Saim Sakaoğlu, Əhməd Bican Ərcilasun, Fikrət Türkmən iştirak etmişlər. Kollokviumda Azərbaycanı Kamal Abdullayev, Xaliq Koroğlu, Şamil Cəmşidov, Süleyman Əliyarov, Tofiq Hacıyev, Tofiq Məlikov, Kamil Vəli Nərimanoğlu təmsil etmişlər. Kollokviumda müşahidəçi kimi Azərbaycandan yazıçı Anar, Qazaxıstandan Şakir İbrayev, Ərdəm Kacıbekov, Qırğızıstandan Süleyman Kayıpov, Türkmənistandan Annaqurban Aşırov iştirak etmişlər.

Kollokviumu akademik Bəkir Nəbiyev açmış, "Sovetskaya Türkologiya" jurnalının Baş redaktorunun müavini Aydın Məmmədov iştirakçıları jurnalın redaksiya heyəti adından salamlamışdır.

Bu dövrün ən mötəbər hadisələrindən biri də eposun elmi-tənqidi mətninin Fərhad Zeynalov və Samət Əlizadə tərəfindən hazırlanıb geniş müqəddimə və şərhlərlə birlikdə nəşr edilməsi olmuşdur [9]. Bundan başqa, həmin qiymətli nəşrə professor Süleyman Əliyarov tərəfindən eposla bağlı olan tarixi-coğrafi qeydlər də əlavə edilmişdir.

"Kitabi-Dədə Qorqud" eposunun həyatında ən böyük hadisələr 18 oktyabr 1991-ci ildə Azərbaycan ikinci dəfə yenidən müstəqilliyini qazandıqdan sonra baş vermişdir. Müstəqillik dövründə Ulu Öndər Heydər Əliyevin 1993-2003-cü illəri əhatə edən ikinci hakimiyyəti illərində də eposun dünyada tanıdılması və xalqımıza yenidən çatdırılması istiqamətlərində Azərbaycan xalqının rəhbəri müstəsna dərəcədə böyük xidmətlər göstərmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev *20 aprel 1997-ci ildə* "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında" tarixi Fərman imzalamışdır.

Ulu Öndərin bu Fərmanı türk dünyası qorqudşünasları tərəfindəbn böyük rəğbətlə qarşılanmışdır. Fərmandan sonra ilk tədbir olaraq 1998-ci il 22-24 dekabrda Bakı şəhərində II Beynəlxalq "Dədə Qorqud" kollokviumu keçirilmişdir. Kollokvium 1988-ci ildə Bakıda keçirilmiş I Beynəlxalq kollokviumun 10 illiyinə həsr edilmişdir. I Beynəlxalq kollokviumdan keçən 10 il ərzində kollokviumun daimi üzvlərindən Bahəddin Ögəl, Orxan Şaik Kökyay və Aydın Məmmədov vəfat etmişlər. II Beynəlxalq kollokviumda daimi üzvlərdən başqa, Zeynəb Qorxmaz, Aysu Ata, Mətin Ərgün, Əli Düyməz, Həmzə Zülfüqar və başqalar da iştirak etmişlər. Kollokviumu yenə də akademik Bəkir Nəbiyev açmış və sözü kollokviuma sədrlik edən Anara vermişdir. Anar I Beynəlxalq kollokviumdan keçən 10 ildə "Kitabi-Dədə Qorqud" eposu ilə bağlı Azərbaycanda həyata keçirilmiş tədirlər haqqında iştirakçılara məlumat vermişdir [8, s.1].

Anar kollokvium iştirakçılarına Ulu Öndərin "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyinin keçirilməsi haqqında imzaladığı Fərman haqqında da məlumat vermiş və görüləcək işlərdən danışmışdır. Çıxışının sonunu türk dünyasına xeyir-dualarla bitirən Anar demişdir: "Qoy uzun əsrlər boyu olduğu kimi, bu gün də Dədə Qorqud milli qürurumuzu, ulusal duyğularımızı, Vətən sevgimizi yaşadan, yeni-yeni nəsillərə ötürən bir qüdrət kimi, qüvvət kimi bizi daima ruhlandırsın. Qoy uzun əsrlər boyu türk dünyasını birləşdirən mənəvi dayaqlardan olan bu müqəddəs Kitabımız bu gün də bizi bir-birimizdən ayırmasın, daha da yaxınlaşdırsın, türk xalqlarını, türk dövlətlərini yüksək amallar naminə birləşdirsin" [8, s.1].

Qeyd etmək lazımdır ki, 1998-ci ildə Bakı şəhərində keçirilmiş II Beynəlxalq "Dədə Qorqud" kollokviumunda da "Kitabi-Dədə Qorqud" eposu ilə əlaqədar məsələlərin müzakirəsi diqqət mərkəzində olmuş, bununla da Azərbaycan qorqudşünaslığın əsas elmi mərkəzlərindən biri kimi tanınmışdır.

Ulu Öndərin 20 aprel 1997-ci il tarixli Fərmanından sonra "Kitabi-Dədə Qorqud" eposu ilə bağlı ölkəmizdə və xarici ölkələrdə çoxlu sayda tədbirlər keçirilmişdir. Ən möhtəşəm tədbir isə 9 aprel 2000-ci ildə Bakı şəhərində dövlət səviyyəsində dastanın 1300 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimi olmuşdur.

Böyük dövlət xadimi Heydər Əliyev əlamətdar ədəbiyyat və mədəniyyət hadisələrindən böyük siyasətdə istifadə etməyi bacaran nadir siyasət xadimlərindən biridir. Bu baxımdan uzaqgörən dahi rəhbər eposun 1300 illik yubile-

yi kimi möhtəşəm mədəniyyət hadisəsini böyük məharətlə dünya mədəniyyətinin fenomenal hadisəsinə çevirməyi də bacarmışdır. Çünki o, "Kitabi-Dədə Qorqud" eposunu Azərbaycan xalqının milli sərvəti saymaqla bərabər, onu həm də ümumtürk və dünya mədəni hadisəsi kimi yüksək qiymətləndirirdi. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında" tarixi Fərmanı da bu məqsədə nail olmaq üçün imzaladığını bəyan etmişdir: "Dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə həmişəlik daxil olmuş "Kitabi-Dədə Qorqud" dastanının Azərbaycan xalqının, bütün türk xalqlarının qədim və zəngin mədəniyyətinin təbliğinə xidmət edən beynəlxalq əhəmiyyətli hadisə olduğunu nəzərə alaraq, onun 1300 illik yubileyinin layiqincə hazırlanması və keçirilməsi məqsədilə "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında fərman imzaladım. Fərmanın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, o, "Kitabi-Dədə Qorqud" dastanının ən azı 1300 il yaşı olduğunu dünyaya nümayiş etdirdi. Bu fərmanla biz bildirdik ki, "Kitabi-Dədə Qorqud" dastanı bütün türk dünyasına məxsusdur, onun vətəni Azərbaycandır, sahibi Azərbaycan xalqıdır, müstəqil Azərbaycan dövlətidir" [7, s.11-12].

Heydər Əliyev "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyindəki tarixi nitqində bu qiymətli abidənin xalqımız üçün əhəmiyyətini bir daha vurğulayaraq demişdir: "Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli-mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır. Bu epos bizim ümumi sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, mənasını, onun hər kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Gənclik bu kitabı nə qədər dərindən bilsə, millətini, xalqını, vətənini, müstəqil Azərbaycanı bir o qədər sevəcəkdir" [7, s.11-12].

Onun təşəbbüsü ilə "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyi həm də YUNESKO səviyyəsində keçirildi. Əlamətdar hadisə idi ki, YUNESKO-nun Baş direktoru Koisiro Matsura Bakıda keçirilən təntənəli mərasimdə iştirak və çıxış etmişdir. Ona görə abidənin bu yubiley tədbiri Azərbaycan müstəqillik qazandıqdan sonra onun yenidən dünyaya tanıdılması sahəsində mühüm əhəmiyyət kəsb edən beynəlxalq tədbir kimi tarixə düşmüşdür.

Eposun 1300 illik yubileyi ilə bağlı ikinci beynəlxalq əlamətdar hadisə Bakıda keçirilən təntənəli yubiley mərasimində Türkdilli Dövlətlər Birliyinin VI Bakı Zirvə görüşünün iştirakçıları olan dövlət və hökumət başçılarının mərasimdə iştirak etməsi idi. Heydər Əliyev 1300 illik yubiley tədbirində Türkdilli Dövlətlər Birliyinin VI Bakı Zirvə görüşü iştirakçıları olan dövlət və hökumət başçılarının mərasimdə iştirakına böyük əhəmiyyət verdiyindən, yubiley tədbirini VI Bakı Zirvə görüşünün keçirildiyi vaxta salmışdır. Bu barədə təntənəli yubiley mərasimindəki çıxışında demişdir: "Dünən Türkdilli Dövlətlər Birliyinin VI Bakı Zirvə görüşü öz işini uğurla sona çatdırdı. Biz bu Zirvə görüşündə Türkdilli Dövlətlər Birliyi yaranan vaxtdan keçmiş 8 il ərzində gördüyümüz işləri təhlil etdik, ona nəzər saldıq və böyük nailiyyətlər əldə etdiyimizi bildirdik. Təbiidir ki, Türkdilli Dövlətlər Birliyinin yaranması, Türk dünyasında, bizim xalqlarımızın hər birinin həyatında tarixi hadisə olmuşdur. Amma 8 il ərzində onun yaşaması, inkişaf etməsi, genişlənməsi bu birliyin yaranmasının, bir tərəfdən, nə qədər zəruri olduğunu nümayiş etdirirdi, ikinci tərəfdən də bu birliyin bizim xalqlarımız üçün gələcəkdə nə qədər gərəkli olduğunu göstərdi...

Bu gün biz hamımız VI Zirvə görüşünü uğurla başa çatdıraraq, xalqlarımızın müştərək abidəsi olan "Kitabi-Dədə Qorqud"un yubileyinə toplaşmışıq. Bu yubileyi daha da çox əhəmiyyətli edən, onun səviyyəsini qaldıran odur ki, biz onu türkdilli dövlətlərin başçıları ilə birlikdə keçiririk" [11, s.1].

Ulu Öndər "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyinin keçirilməsinin böyük əhəmiyyətini vurğulayaraq mərasimdəki çıxışında demişdir: "Kitabi-Dədə Qorqud" yubileyinin ən böyük mənası, əhəmiyyəti ondan ibarətdir ki, bu, bizim milli azadlığımızı, dövlət müstəqilliyimizi, sərbəstliyimizi bir daha nümayiş etdirir. "Kitabi-Dədə Qorqud" vəsiyyətləri bizə deyir ki, daim müstəqillik yolu ilə getmək, Azərbaycanın milli azadlığını və dövlət müstəqilliyini əbədi etmək bizim hər birimizin qarşısında duran ali məqsəddir" [11, s.1].

Deməli, Ulu Öndər "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyi münasibətilə keçirilən genişmiqyaslı tədbirlərdən həm Azərbaycan xalqında milli soykökə qayıdışın, milli-mənəvi dəyərlərin daha da möhkəmləndirilməsi baxımından və həm də türk dünyasında inteqrasiyanın möhkəmləndirilməsi istiqamətində böyük bacarıq və uzaqgörənliklə istifadə etmişdir. Bu isə "Kitabi-Dədə Qorqud" eposunun yubileyinin keçirildiyi dövrdə gənc, müstəqil dövlət olan Azərbaycan üçün olduğu kimi, həm də eyni köklərdən gələn başqa türk dövlətləri üçün də eyni dərəcədə əhəmiyyətli idi. Bütün bunlar isə görkəmli dövlət xadimi Heydər Əliyevin geniş və dərin strateji baxışlara malik olan uzaqgörən bir lider olduğunu sübut edir.

Ulu Öndər yubiley münasibətilə "Kitabi-Dədə Qorqud" eposunun tədqiqi, təbliği və dünyaya çatdırılması üçün nəşr olunan əsərlərdən də söhbət açaraq demişdir: "Kitabi-Dədə Qorqud" özündə böyük elmi, mədəni, mənəvi fikirlər cəmləşdirən abidədir. İndiyə qədər "Kitabi-Dədə Qorqud"un öyrənilməsi və bugünkü nəsillərə çatdırılması yolunda xeyli iş görülübdür. Xüsusən son üç il ərzində yubiley komissiyasının üzvləri, Azərbaycanın alimləri, tədqiqatçıları, yazıçıları, ictimai xadimləri tərəfindən görülən işlər yüksək qiymətə malikdir" [11, s.1].

Ulu Öndərin qeyd etdiyi nəşrlər arasında abidənin 1300 illik yubileyi ilə əlaqədar olaraq 2000-ci ildə ikicildlik "Kitabi-Dədə Qorqud" Ensiklopediyasının nəşrini xüsusi qeyd etmək lazımdır. Xalq yazıçısı Anarın rəhbərliyi ilə Azərbaycan alimlərindən başqa, Türkiyə, Avropa, Orta Asiya, Moskva və Leninqrad alimlərinin də iştirakı ilə yüksək səviyyədə hazırlanmış bu nəşrin I cildinə Ulu Öndər Heydər Əliyev "Milli varlığımızın mötəbər qaynağı" adlı sanballı elmi müqəddimə yazmışdır [7, s.5-12]. Həmin müqəddimədə Ulu Öndər yubiley ərəfəsindəki nəşrlərə də münasibət bildirmiş və "Kitabi-Dədə Qorqud" Ensiklopediyasının əhəmiyyətini xüsusilə qeyd etmişdir: "Bu tədbirlər, nəşrlər içərisində ən önəmlisinin "Dədə Qorqud ensiklopediyası" olduğunu desəm, zənnimcə, yanılmaram. Hər hansı bir ensiklopediyanın hazırlanmasının nə qədər çətin iş olduğu hamıya bəllidir. Azərbaycanda ensiklopediya hazırlanması və nəşri sahəsində müəyyən təcrübə toplanmışdı. Lakin xalqımızın olduqca mühüm tarixi və mədəni qaynaqlarından biri olan "Kitabi-Dədə Qorqud" eposu haqqında ensiklopediyanın çoxşaxəli və bir sıra spesifik xüsusiyyətlərə malik olması bu proyektin həyata keçirilməsini xeyli çətinləşdirirdi. Bu gün biz qorqudşünas alimlərimizin – dilçilərin, tarixçilərin, ədəbiyyatşünasların, etnoqrafların və elmin başqa sahələrinin nümayəndələrinin gərgin əməyinin ilk bəhrəsini görürük. Bu ensiklopediya qorqudşünaslıq sahəsində çox mühüm hadisə olmaqla yanaşı, bütün türk xalqlarının tarixi və mədəniyyəti üçün mötəbər bir qaynaq rolu oynayacaqdır" [7, s.12].

1300 illik yubileyi ərəfəsində və yubileydən sonra abidənin yeni mükəmməl nəşrləri, çoxlu sayda lüğətlər, biblioqrafik göstəricilər oxucuların ixtiyarına verilmişdir. Ölkəmizdə və xaricdə görkəmli qorqudşünas alimlərin iştirakı ilə çoxlu sayda konfranslar, simpoziumlar keçirilmişdir. Konfrans materialları kitab şəklində nəşr olunmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyev müstəqillik tariximizin mühüm ədəbi hadisəsi olan "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyinin yüksək səviyyədə keçirilməsi ilə kifayətlənməmiş, onun adının əbədiləşdirilməsi üçün də böyük işlər görmüşdür. Onlardan ən mühümü keçmiş SSRİ-də ilk yarımdalma qazma qurğusu olan və Xəzər dənizində istifadə edilən "Kaspmorneft" adlı qurğunun Ulu Öndərin təşəbbüsü ilə adının dəyişdirilərək, "Dədə Qorqud" adlandırılması olub.

Ümummilli Lider Heydər Əliyevin klassik irsimizin şah əsəri olan "Kitabi-Dədə Qorqud" eposunun dünyada populyarlaşdırılması sahəsində gördüyü böyük işlərdən çıxış edərək, bu böyük dövlət xadiminin Azərbaycana rəhbərlik etdiyi dövrü fəxrlə "Kitabi-Dədə Qorqud" eposunun İntibah dövrü adlandırmaq olar. Ulu Öndərin hakimiyyətdə olduğu illərdə eposun nəşri və tədqiqi sahəsində görülən bütün işlər, bilavasitə onun təşəbbüsü və sədrliyi ilə 9 aprel 2000-ci ildə Bakı şəhərində dövlət səviyyəsində keçirilən eposun 1300 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimi abidənin tarixi bioqrafiyasına qızıl hərflərlə həkk olunmuşdur.

Məhz görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə "Kitabi-Dədə Qorqud" eposu-

nun 1300 illik yubileyinin türk dövlətlərinin və YUNESKO rəhbərliyinin iştirakı ilə Azərbaycanda keçirilməsi ölkəmizi beynəlxalq aləmdə həm Dədə Qorqudun vətəni və həm də dünya qorqudşünaslıq elminin vətəni kimi tanıtmışdır. Bundan başqa, "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinə Heydər Əliyev kimi dahi şəxsiyyətin rəhbərlik etməsi Dədə Qorqudun və eposun populyarlaşmasında böyük rol oynamışdır. Bundan sonra, Azərbaycanda dünyaya gələn uşaqlara verilən adlar içərisində Qorqud Atanın və eposunun əsas qəhrəmanlarının adı çoxluq təşkil etməkdədir. Azərbaycanda və dünyanın müxtəlif ölkələrində Dədə Qorquda heykəllərin qoyulması hərəkatı da Heydər Əliyevin keçirdiyi tarixi yubiley hadisəsindən başlayaraq, genişlənməkdə davam edən əhəmiyyətli bir prosesə çevrilmişdir. Bakıda, Brüsseldə, Naxçıvanda, Qazaxda Dədə Qorquda ucaldılan abidələr Ulu Öndər Heydər Əliyevin arzularının və ideyalarının işığında meydana çıxmış monumental sənət əsərləridir.

***

Ulu Öndərin layiqli davamçısı, bütün sahələrdə dahi şəxsiyyətin ideyalarını yaradıcılıqla davam etdirən möhtərəm Prezident İlham Əliyev də "Kitabi-Dədə Qorqud"un müasir dövrdə dünya miqyasında geniş təbliğ olunması sahəsində böyük əhəmiyyətə malik olan tədbirlər həyata keçirmişdir.

Yeni tarixi epoxada müasir Azərbaycanın lideri İlham Əliyev 2003-cü ildə "Kitabi-Dədə Qorqud" eposunun adının əbədiləşdirilməsi, dünyada tanıdılması sahəsində əlamətdar hadisələrin təşəbbüskarı olmuş və dünya əhəmiyyətli tədbirlərin həyata keçməsinə birbaşa şəxsən özü rəhbərlik etmişdir.

Prezident seçiləndən az sonra İlham Əliyevin Dədə Qorqudun adının dünyada əbədiləşdirilməsi istiqamətində ilk çıxışı Dədə Qorqudun Brüsseldə ucaldılmış heykəlinin açılışı mərasimində olmuşdur. Dünya Gömrük Təşkilatının baş iqamətgahı qarşısında "Dədə Qorqud" abidə kompleksinin açılış mərasimi 18 may 2004-cü ildə olmuşdur. Kompleksə Dədə Qorqudun heykəli və yanındakı yazılı löhvə daxildir. Bu abidə-kompleks Dədə Qorqudun özünün Avropada populyarlaşdırılması sahəsində nə qədər əhəmiyyət daşıyırsa, "Kitabi-Dədə Qorqud" eposunun da tanıdılması və təbliği sahəsində mühüm əhəmiyyət kəsb edir. Dünyada Dədə Qorquda ucaldılan ilk abidə olan bu heykəl Avropada oğuz başbiləninin şərəfinə ucaldılmış ilk yazılı heykəl-abidə olaraq orijinal sənət əsəri kimi yüksək qiymətləndirilir. Heykəl-abidənin yanındakı lövhədə Azərbaycan, ingilis və fransız dillərində yazılmış yazı bunun bariz nümunəsidir. Qeyd olunan lövhədə aşağıdakı sözlər yazılmışdır: "Dədə Qorqud Azərbaycan xalqının əcdadı olan qədim oğuzların baş bilicisi, ozanı, müdrik el ağsaqqalı, hörmətli və nüfuzlu simasıdır. Haqq-ədalət, barışıq carçısı olub. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının, bütün türkdilli xalqların qədim və möhtəşəm abidəsidir. Elm aləminə iki nüsxəsi məlumdur. Bunlardan biri Drezden, ikincisi Vatikan kitabxanasındadır. Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 2000-ci ildə Bakı şəhərində bütün türkdilli xalqların mədəni irsinin qədim və ayrılmaz hissəsi, Azərbaycan xalqının mühüm tarix və mədəniyyət qaynaqlarından biri olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubiley mərasimi təntənəli surətdə keçirilmişdir. Eyni zamanda "Kitabi-Dədə Qorqud" eposunun yaranmasının 1300 illiyi YUNESKO xətti ilə dünya miqyasında qeyd edilmişdir" [4, s.2].

"Kitabi-Dədə Qorqud" eposunu Azərbaycan xalqının ədəbi incisi adlandıran möhtərəm Prezident İlham Əliyev Brüssel şəhərindəki açılış mərasimində çıxış edərək demişdir: "Mən bu gün burada, Ümumdünya Gömrük Təşkilatının binası qarşısında olmaqdan və Dədə Qorqudun abidəsinin açılmasından çox xoşbəxtəm. "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının yaratdığı incilərdən biridir. Onun Azərbaycan xalqı və bütün Türk dünyası üçün qədim tarixi və böyük mənası var. 1997-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev "Dədə Qorqud" dastanının 1300 illiyinin rəsmi qeyd olunması barədə Fərman imzaladı və 2000-ci ildə Bakıda türkdilli ölkələrin prezidentlərinin iştirakı ilə bu yubileyə həsr edilmiş böyük mərasim keçirildi. 1999-cu ildə YUNESKO-da böyük proqramlarla çıxış edərək, "Dədə Qorqud" dastanının 1300 illiyini qeyd etdi. Bu ədəbi inci bu gün də yaşayır, "Kitabi-Dədə Qorqud"dakı ideyalar və fikirlər bugünkü nəsil üçün də əhəmiyyət kəsb edir və

mən əminəm ki, hələ bir neçə əsrlər boyu öz aktuallığını saxlayacaqdır” [1, s.2].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Kitabi-Dədə Qorqud” eposunun dünyada populyarlaşdırılması məqsədilə 28 dekabr 2013-cü ildə imzaladığı “Dədə Qorqud” dastanları əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi haqqında” Sərəncamı da böyük əhəmiyyətə malikdir. Sərəncamda “Kitabi-Dədə Qorqud” eposunun mədəni-mənəvi dünyada tutduğu mövqe yüksək qiymətləndirilir: “Azərbaycan xalqının əsrlər boyu yaratdığı zəngin mədəni-mənəvi sərvətlər xəzinəsində “Kitabi-Dədə Qorqud” özünəməxsus layiqli yer tutur. Qəhrəmanlıq dolu keçmişimizi parlaq əks etdirən bu misilsiz və möhtəşəm sənət abidəsi milli varlığımızın müəyyənləşməsində mühüm rol oynamışdır. Əcdadlarımız barəsində yaradılmış ən böyük və məşhur oğuznamələrdən ibarət “Kitabi-Dədə Qorqud” ana dilimizin tükənməz ifadə imkanlarını özündə yaşadır. Azərbaycanın tarixi coğrafiyasını bütün genişliyi ilə əhatə edən monumental epos xalqımıza məxsus qədim adət-ənənələrin, ulu babalarımızın dünyagörüşünün, mənəvi aləminin və yüksək bədii zövqünün öyrənilməsində qiymətli mənbədir” [6, s.1].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 aprel 2007-ci il tarixində imzaladığı “Azərbaycan Respublikasının monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqındakı” Proqram ölkəmizin paytaxtı Bakı şəhərində və regionlarda heykəllərin yaradılması işinə dövlət dəstəyinin əməli ifadəsidir. Məhz həmin dövlət sənədinin qəbul edilməsindən sonra respublikamızda heykəltəraşlıq sahəsində yeni bir tarixi mərhələ başlamışdır. “Kitabi-Dədə Qorqud” eposu ilə əlaqədar ölkəmizdə bənzərsiz heykəllərin ucaldılması da həmin dövlət əhəmiyyətli proqramın həyata keçirilməsi istiqamətində atılmış qiymətli addımlardır. Qəbul edilmiş Proqram şəhərlərimizdə heykəllərin və parkların yaradılması kompleks bir layihənin icra edilməsini irəli sürməklə portret heykəllərlə yanaşı, kompozisiyalı heykəltəraşlığın inkişafına da geniş meydan açmışdır. Bundan sonra 2013-cü ildə salınmış Dədə Qorqud parkı və “Kitabi-Dədə Qorqud” abidəsi park-heykəl layihəsinin mükəmməl bir nümunəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 13 dekabr 2013-cü ildə Bakının Nərimanov rayonu ərazisində ucaldılan “Kitabi-Dədə Qorqud” abidəsi və yeni salınmış “Dədə Qorqud” parkının açılışında iştirak etmişdir. Müasir dövrdə yaradılmış kompozisiyada park-heykəl yeni tipli heykəltəraşlığın əhəmiyyətli hadisəsidir. Bu orijinal park-heykəl layihəsi “Dədə Qorqud heykəli və “Dədə Qorqud dünyasi” tarixi-etnoqrafik kompleksinin yaradılması haqqında” Ümummilli Lider Heydər Əliyevin imzaladığı 1 aprel 2000-ci il tarixli Fərmanına əsasən qərara alınmışdı. Prezident İlham Əliyevin 12 aprel 2007-ci il tarixində imzaladığı “Azərbaycan Respublikasındakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri” haqqında Sərəncamdan sonra Dədə Qorqud parkı üçün, əsasən, geniş abadlıq işləri nəticəsində Bakının ən görkəmli yerində 6 hektar sahədə ərazi ayrılmış, burada bir neçə il ərzində, sözün əsl mənasında, Dədə Qorqud şəhərciyi salınmışdır.

Bakı şəhərində 13 dekabr 2013-cü ildə təşkil olunan təntənəli açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bu möhtəşəm tarixi-etnoqrafik kompleksinin açılışını çox böyük əlamətdar hadisə adlandıraraq demişdir: “Kitabi-Dədə Qorqud” Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur. Əsərin qəhrəmanlarının adlarını Azərbaycanın çoxsaylı yaşayış məntəqələrində görmək olar. Bu əsərdə Azərbaycan toponimləri əks olunmuşdur. Bir sözlə, “Kitabi-Dədə Qorqud” dastanı Azərbaycan xalq ədəbiyyatının yazılı abidəsidir. Bu dastan hər bir azərbaycanlı üçün əzizdir. Bu gün bu abidənin ucaldılması Azərbaycan xalqının bir daha öz tarixi keçmişinə, mədəniyyətinə olan münasibətinin təzahürüdür” [3, s.1].

Ümummilli Lider Heydər Əliyev və möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdikləri tədbirlər nəticəsində “Kitabi-Dədə Qorqud” eposunun adı çoxdan Azərbaycan və türk dünyasının sərhədlərini keçib, ən mötəbər epos nümunəsi kimi dünya xalqlarının bir çoxlarının dilinə tərcümə olunaraq nəşr edilir, bu mövzuda yeni-yeni tədqiqat əsərləri yaranır. Bu işlərə yeni nəfəs verən və geniş yaradıcılıq imkanları yaradan əlamətdar hadisələrdən biri kimi “Kitabi-Dədə Qorqud”un alman diplomatı və şərqşünası,

türkoloq Fridrix fon Dits tərəfindən ilk dəfə 1815-ci ildə alman dilinə çevirib tədqiqata cəlb edərək dünya elmi ictimaiyyətinə təqdim etməsinin 200 illik yubileyinin keçirilməsi haqqında Prezident İlham Əliyevin Sərəncamını xüsusi qeyd etmək lazımdır. Möhtərəm Prezident İlham Əliyevin 20 fevral 2015-ci il tarixində imzaladığı "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" Sərəncamına əsasən Azərbaycan xalqı özünün möhtəşəm abidəsi olan "Kitabi-Dədə Qorqud" dastan-eposunun 1815-ci ildə görkəmli prussiya mənşəli Almaniya diplomatı və şərqşünas alimi, nadir və qiymətli əlyazmalar və kitablar həvəskarı, dünya qorqudşünaslığının banisi Henrix Fridrix fon Dits (alm. Heinrich Friedrich Diez, 2 sentyabr 1751, Bernburq – 7 aprel 1817, Berlin) tərəfindən elmi dövriyyəyə daxil etməsinin 200 illik yubileyini təntənəli surətdə Dövlət səviyyəsində qeyd etmişdir.

Abidənin 1300 illik yubileyində olduğu kimi, bu dəfə də 2015-ci il aprelin 15-də YUNESKO-nun mənzil-qərargahında Azərbaycanın, Türkiyənin, Qazaxıstanın və Türkmənistanın bu təşkilat yanındakı daimi nümayəndəliklərinin təşkilatçılığı və Beynəlxalq Türk Akademiyasının dəstəyi ilə "Kitabi-Dədə Qorqud" eposunun alman dilinə tərcüməsinin və nəşrinin 200 illiyinə həsr olunan genişmiqyaslı tədbir keçirilmişdir [10, s.5].

Respublikamızda da cənab Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən, 2015-ci il dekabrın 22-də Azərbaycan Dövlət Akademik Milli Teatrında "Kitabi-Dədə Qorqud" eposunun alman dilinə tərcüməsinin və nəşrinin 200 illiyinə həsr olunmuş elmi-bədii yubiley tədbiri təşkil olunmuşdur [12, s.2]. Türkiyə, Almaniya, Rusiya, İran, Gürcüstan, İtaliya və başqa ölkələrin, eləcə də ölkəmizin tanınmış alimlərinin, qorqudşünasların elm nümayəndələri və geniş ictimaiyyətin təmsil olunduğu bu tədbirdə çıxış edənlər tərəfindən "Kitabi-Dədə Qorqud"un dünya epos sənətinin zirvəsində durduğu, eposun bütün türk dünyasının fəxr edəcəyi möhtəşəm abidə olduğu vurğulanmışdır.

"Kitabi-Dədə Qorqud"un alman dilinə tərcümə edilməsinin 200 illiyi qeyd edilərkən, Azərbaycanda Beynəlxalq Bakı Multikulturalizm Mərkəzinin təşəbbüsü və qayğısı ilə vaxtilə 1815-ci ildə böyük alman şərqşünası Fridrix Fon Dits tərəfindən üzə çıxarılaraq ilk dəfə almancaya çevrilmiş "Kitabi-Dədə Qorqud" dastanındakı "Basatın Təpəgözü öldürməsi boyu" 25 dilə tərcümə edilərək, akademik kamal Abdullanın təşəbbüsü ilə hər biri ayrı-ayrı kitablar kimi çap olunmuşdur. Bu, "Kitabi-Dədə Qorqud" eposunun beynəlxalq aləmdə tanıdılmasına müstəqil Azərbaycan dövlətinin dəstəyinin əhəmiyyətli bir töhfəsidir.

## Nəticə / *Conclusion*

Dədə Qorqudun dünyada tanıdılması baxımından Azərbaycan dövlətinin təşəbbüsü və dəstəyi ilə YUNESKO səviyyəsində qeyd edilmiş daha bir möhtəşəm addımı da xüsusi olaraq qeyd etməyə ehtiyac vardır. Belə ki, ümumiyyətlə, dünya ədəbiyyatının şedevrlərindən biri olan "Kitabi-Dədə Qorqud" abidəsinin 2018-ci ildə "Dədə Qorqud /Korkut Ata/ Dede Korkut irsi: dastan mədəniyyəti, xalq nağılları və musiqisi" adı ilə YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 13-cü Sessiyasında qəbul edilmiş qərarla Azərbaycan, Qazaxıstan və Türkiyə ilə birgə çoxmillətli nominasiya kimi Bəşəriyyətin Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir. Bu hadisə "Kitabi-Dədə Qorqud" eposunun dünyada tanıdılması, tədqiqi və təbliği istiqamətində Heydər Əliyev – İlham Əliyev epoxasında dövlət səviyyəsində həyata keçirilən tədbirlərin qanunauyğun məntiqi yekunudur.

## Ədəbiyyat / *References*


1. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin çıxışı // "Ədəbiyyat qəzeti", 2004-cü il, 21 may.
2. Anar. Unudulmaz görüşlər. Bakı: Təhsil, 2009.

3. Bakıda “Kitabi-Dədə Qorqud” abidəsinin və “Dədə Qorqud” parkının aşılışı zamanı Prezident İlham Əliyevin çıxışı // “Ədəbiyyat qəzeti”, 2013-cü il, 20 dekabr.
4. Brüsseldə “Dədə Qorqud” abidəsinin açılış mərasimi // “Ədəbiyyat qəzeti”, 2004-cü il, 21 may.
5. Dədə Qorqud ocağında // “Gənclik” jurnalı, 1988, avqust.
6. “Dədə Qorqud” dastanları əsasında çoxseriyalı bədii televiziya filminin çəkilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // “Ədəbiyyat qəzeti”, 2014-cü il, 10 yanvar.
7. Heydər Əliyev. Milli varlığımızın mötəbər qaynağı // “Kitabi-Dədə Qorqud” Ensiklopediyası. İki cilddə, I cild. Bakı: Yeni Nəşrlər Evi, 2000.
8. II Beynəlxalq “Dədə Qorqud” kollokviumu // “Ədəbiyyat qəzeti”, 1999, 8 yanvar.
9. Kitabi Dədə Qorqud. Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə F.Zeynalov və S.Əlizadənindir. Nüsxə fərqləri və şərhlərin müəllifi: S.Əlizadə. Redaktoru: Elməddin Əlibəyzadə. Bakı: Yazıçı, 1988.
10. “Kitabi-Dədə Qorqud”un Avropada ilk nəşrinin 200 illiyi YUNESKO-da qeyd edilib // “Azərbaycan” qəzeti, 2015, 17 aprel.
11. Milli-mənəvi dəyərlərimizə, xalqımızın çoxəsrlik tarixinə hörmət, ehtiram bayramı // Respublika Sarayında “Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi // “Ədəbiyyat qəzeti”, 2000-ci il, 14 aprel.
12. Türk dünyasının möhtəşəm abidəsi “Kitabi-Dədə Qorqud” // “Ədəbiyyat qəzeti”, 2015-ci il, 26 dekabr.
13. Kamal Abdulla. Mifdən yazıya və yaxud gizli Dədə Qorqud. Bakı: Mütərcim, 2009.
14. Kamal Abdulla. “Kitabi-Dədə Qorqud” poetikasına giriş. Bakı: RS Poliqraf, 2017.
15. İsa Həbibbəyli. Kitabi-Dədə Qorqud: yazılı epos və ya epopeya. Bakı: Elm, 2020.
16. İsa Həbibbəyli. Heydər Əliyev: dövlətçilik təlimi və müasir dövr. – Naxçıvan: Əcəmi, 2013.

## «Китаби-Деде Горгуд»: от Гейдара Алиева – к Ильхаму Алиеву

**Иса Габиббейли**
Президент НАНА, академик
E-mail: isa.habibbeyli@science.az

**Резюме.** В статье говорится о деятельности, проводимой ставшим во главе Азербайджана общенациональным лидером азербайджанского народа Гейдаром Алиевым в деле ознакомления мировой общественности с памятником «Китаби-Деде Горгуд», преодолевшим все преграды времени и дошедшим до наших дней. Созданный всеобщим мышлением VII века монументальный эпос «Китаби-Деде Горгуд» представлен как грандиозное явление, имеющее исключительное значение в развитии литературно-эстетической мысли и национально-духовном обогащении азербайджанского народа. Именно во время эпохи правления Гейдара Алиева и затем Ильхама Алиева эпос «Китаби-Деде Горгуд» приобрёл значение настоящего в полном смысле национально-нравственного достояния нашего народа в мировом масштабе. Мероприятия, проведённые в нашей стране в годы независимости на государственном уровне в связи с эпосом «Китаби-Деде Горгуд», продемонстрировали полное созвучие его идей патриотизма и азербайджанства с идеалами нашего народа и государства. «Китаби-Деде Горгуд» будет эстафетой переходить от поколения к поколению как национально-нравственный паспорт независимого Азербайджанского государства, как его учебное пособие, и служить дальнейшему развитию и укреплению нашей государственной независимости.
**Ключевые слова:** «Китаби-Деде Горгуд», Гейдар Алиев, Ильхам Алиев, эпос, азербайджанство, патриотизм